Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №09 (174) * Noyabr 2017-ci il

## Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirak edib




***Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə noyabrın 24-də Şərq Tərəfdaşlığı Sammitində iştirak edib.***

Dövlətimizin başçısı Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında iştirak etmək üçün Avropa İttifaqının binasına gəldi.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk, Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker və Avropa İttifaqına sədrlik edən Estoniyanın Baş naziri Yuri Ratas dövlətimizin başçısını salamladılar.

Sonra Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyası oldu.

Prezident İlham Əliyev sessiyada çıxış etdi.

Qeyd edək ki, Şərq Tərəfdaşlığı Polşa və İsveçin Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində MDB ölkələri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsüdür. "Şərq tərəfdaşlığı" Azərbaycan da daxil olmaqla Avropa İttifaqının altı qonşu ölkəsini əhatə edir.

Budəfəki Sammitdə Avropa İttifaqına üzv dövlətlər altı Şərq tərəfdaşı ölkəsinin dövlət və hökumət başçıları ilə gələcək əməkdaşlığı müzakirə etdilər. Onlar, həmçinin Şərq Tərəfdaşlığı ölkələrinin vətəndaşlarına təsirli faydaların verilməsinə xüsusi diqqət yetirərək, Riqa Sammitindən sonrakı nailiyyətləri qiymətləndirdilər.

Artıq Şərq Tərəfdaşlığına doğru nəticələrə yönəlmiş yanaşmanı dəstəkləmək üçün Avropa İttifaqı 2020-ci ilədək əldə olunacaq 20 əsas nəticəni müəyyənləşdirib. Əsas mərhələlərin isə məhz Brüssel Sammitində müəyyənləşdirilməsi nəzərdə tutulmuşdu.

Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyası başa çatandan sonra birgə foto çəkdirildi.

Sonda dövlət və hökumət başçılarının şərəfinə işçi nahar verildi.

Bununla da Prezident İlham Əliyevin Brüsselə işgüzar səfəri başa çatdı.

## Azərbaycan-Tacikistan parlamentlərarası əməkdaşlığı yüksək səviyyədədir

***Noyabrın 10-da Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin və Tacikistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun Tacikistan parlamentinin sədr müavini Akramşo Felaliyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.***

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov 1992-ci il noyabrın 16-da keçirilmiş Tacikistan Respublikası Ali Sovetinin XVI sessiyasından ötən 25 il ərzində Tacikistanın müstəqil və inkişaf edən bir ölkəyə çevrildiyini bildirdi. Qeyd etdi ki, bu gün Tacikistan Mərkəzi Asiyada aparıcı rola malik ölkələrdən biridir.



Görüşdə iştirak edən Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov diqqətə çatdırdı ki, o vaxt Emoməli Rəhmonun Ali Sovetin sədri seçilməsindən sonra ölkədə anarxiyaya və ikihakimiyyətliliyə son qoyuldu, Tacikistan inkişaf yoluna qədəm qoydu. Bu gün Azərbaycanla Tacikistan arasında iqtisadi, siyasi, parlamentlərarası əlaqələr yüksək səviyyədədir. Prezident İlham Əliyev Tacikistanla münasibətlərin inkişafına böyük önəm verir.

Tacikistan parlamentinin sədr müavini Akramşo Felaliyev bildirdi ki, bu il həm də iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 ili tamam olur. Bu illər ərzində iki ölkə arasında münasibətlər daha da yaxınlaşıb. Bu gün Azərbaycan və Tacikistan bir sıra beynəlxalq təşkilatlarda yaxından əməkdaşlıq edirlər.

Tacikistan Ali Sovetinin tarixi XVI sessiyası barədə danışan sədr müavini diqqətə çatdırdı ki, həmin gün tacik xalqının tarixində taleyüklü günlərdən biridir. Həmin gün ölkəyə yeni rəhbərin seçilməsi tacik xalqını və dövlətini məhv olmaqdan xilas etdi.

Söhbət zamanı Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə, Milli Məclisin komitə sədri Arif Rəhimzadə, deputatlar Musa Quliyev, Rasim Musabəyov, Azər Badamov Azərbaycan-Tacikistan münasibətlərinin tarixindən, bu sahədə görülmüş işlərdən, qarşıda dayanan vəzifələrdən danışdılar, tacik xalqına və dövlətinə bu tarixi gün münasibətilə təbriklərini çatdırdılar. Görüşdə Gürcüstanın ölkəmizdəki səfiri Teymuraz Şaraşenidze də çıxış edərək öz fikirlərini bölüşüb.

Tacikistanın ölkəmizdəki səfiri Rustam Soli bu tədbiri qardaş münasibətinin təzahürü kimi qiymətləndirib və hər iki ölkəyə uğurlar arzulayıb.

## "Ölkəmizi tanıyaq" layihəsi

***16.11.2017-cı il tarixdə Prezident İlham Əliyevin tapşırığına əsasən Qobustan ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyasının növbəti mərhələsinə start verilib.***



Səh. 2

## Ədliyyə qulluqçularının peşə bayramı günü

***Hörmətli tədbir iştirakçıları! Hər birinizi ədliyyə qulluqçularının peşə bayramı günü münasibətilə təbrik edirəm!***



Səh. 4

## 9 noyabr "Dövlət Bayrağı Günü" nə həsr olunmuş tədbir keçirildi

***Noyabr 8-də Qobustan rayonunda Azərbaycan tarixində əlamətdar hadisələrdən olan 9 noyabr - Dövlət Bayrağı Günü və 21 noyabr -Yeni Azərbaycan Partiyasının 25 illiyi münasibətilə tədbir keçirildi.***



Səh. 5

# Rayonumuzun idman uğuru!







***26 noyabr 2017-ci il tarixdə Qobustan İdman Kompleksində Yeniyetmələr, gənclər, qızlar və böyüklər arasında Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Qocyu-ryu okinava karate-do və kobudo növləri üzrə II Respublika Turniri keçirilmişdir.***

Bu turnir artıq hər il Qobustan rayonunda keçirilməsi rəsmi olaraq qəbul olunmuşdur. Belə ki, yarışlara ölkəmizin digər rayon və şəhərlərindən də dəvət almışlar. Yarışda 100-dən artıq gənc karate ustası iştirak etmişdir. Turnirin açılışına həsr olunmuş mərasimin əvvəlində Ümummilli Lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Mərasimdə ölkəmizdə idmanın inkişafına göstərilən yüksək dövlət qayğısından danışılmış, ucqar rayonlarda belə yarışların keçirilməsinin bölgələrdə idmanın kütləviliyinin artmasına böyük təsir göstərdiyi xüsusi vurğulanmışdır.

Yarış Qobustan idmançılarının üstünlüyü şəraitində keçmişdir, onlar komanda hesabında I, Bakının Xətayi idmançıları II, Hacıqabul karateçiləri isə III yerə layiq görülmüşlər

Qobustan idmançılarından xüsusilə fərqlənərək "qızıl" medal alanlar:

**1. Əkbərli Rəvan - I yer**
**2. Mikayılov Elxan - I yer**
**3. Babaşov Fərid - I yer**
**4. Məmmədov Hüseyn - I yer**
**5. Seyidəhmədli Ömər - I yer**
**6. Ağayev Murad - I yer**
**7. Abdullayev Əli - I yer**
**8. Əsgərov Mehrab - I yer**
**9. Gülməmmədov İlkin - I yer**
**10.İsmayılov Cavid - I yer**

Bu turnirdə Qobustan karateçiləri 10 "qızıl", 5 "gümüş", 5 "bürünc" medal qazanmışlar. Qələbə münasibətilə idmançılarımızı və onların məşqçiləri İbad Rzazadəni və Kamal Həsənovu təbrik edir, yeni nailiyyətlər arzulayırıq.



## "Ölkəmizi tanıyaq" devizi altında keçirilən bilik yarışması

### *"Nə? harada? Nə zaman?"*

16 noyabr 2017-ci il tarixdən 19 noyabr 2017-ci il tarixinə kimi Qobustan rayonunun IX - XI sinif şagirdlərindən ibarət 40 nəfərlik komanda "Ölkəmizi tanıyaq" marifləndirici tur-aksiyasında Quba, Qusar və Xaçmaz rayonlarına səyahət etdilər. Şagirdlərimiz səyahət zamanı Quba, Qusar və Xaçmaz rayon əhalisinin adət-ənənələri, yaşayış tərzləri və qədim abidələri ilə yaxından tanış oldu.Aksiyanın üçüncü günü Mingəçevir, Şəki, Qəbələ, İsmayıllı, Göyçay, Ağsu, Şamaxı və Qobustan çagirdləri arasında "Ölkəmizi tanıyaq" devizi altında "Nə? Harda? Nə zaman?" intelektual bilik yarışması keçrildi. Qobustan rayon çagirdlərindən ibarət 6 nəfərlik komandamız komandalar arasında yüksək nəticə göstərərək birinci yerə laiq görülərək kubok və medallarla təltif olundular.



## "Azərbaycan 2017-ci ildə 55 beynəlxalq yarışa ev sahibliyi edib"

***"Bu il Azərbaycan idmanı üçün əlamətdar olub. Qarşıya qoyulan tapşırıqlar layiqincə yerinə yetirilib, medalların sayı artıb".***

Bunu gənclər və idman naziri Azad Rəhimov Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) 2017-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə deyib.

Nazir bildirib ki, Azərbaycan idmançıları 2017-ci ildə 234 beynəlxalq yarış, o cümlədən dünya və Avropa çempionlarında iştirak ediblər: "Respublikamızda 2019 daxili yarış təşkil olunub. Azərbaycan 55 beynəlxalq yarışa ev sahibliyi edib. Yığma komandalarımız 234 beynəlxalq yarışda iştirak edib. Həmçinin milli komandalar eçün 100-dən çox təlim-məşq toplanışları olub. İl ərzində 851 medal əldə edilib. Bu yarışların içində ən mühümü IV İslam Həmrəyliyi Oyunları olub".

## ELAN

28.09.1999-cu il tarixdə dövlət qeydiyyatından keçmiş İsmayıllı rayonu Topçu kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icmasına məxsus 331 saylı şəhadətnamə və möhür itdiyi üçün etibarsız sayılır.

24.03.2004-cü il tarixdə dövlət qeydiyyatından keçmiş İsmayıllı rayonu Ruşan kənd dini icmasına məxsus 248 saylı şəhadətnamə və möhür itdiyi üçün etibarsız sayılır.

28.09.1999-cu il tarixdə dövlət qeydiyyatından keçmiş İsmayıllı rayonu Tircan kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icmasına məxsus 317 saylı şəhadətnamə, nizamnamə və möhür itdiyi üçün etibarsız sayılır.

28.09.1999-cu il tarixdə dövlət qeydiyyatından keçmiş İsmayıllı rayonu Aşıqbayram kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icmasına məxsus 311 saylı şəhadətnaməmə, nizamnamə və möhür itdiyi üçün etibarsız sayılır.

15.08.1997-ci il tarixdə dövlət qeydiyyatından keçmiş İsmayıllı rayonu Sumağallı kəndi "Cümə" məscidi dini icmasına məxsus 181 saylı şəhadətnamə, nizamnamə və möhür itdiyi üçün etibarsız sayılır.

Şərəfxanov Qalib Xanhüseyin oğlunan adına verilmiş Torpağa Mülkiyyət Hüququna Dair Dövlət aktı № JN-0083 Kod: 30708028 itdiyi üçün etibarsız sayılır.

Vahidova Sahabsoltan İlyas qızının adına verilmiş Torpağa mülkiyyət hüququna Dair Dövlət aktı JN 0093 Kod 307030018 itdiyi üçün etibarsız sayılır.

*Təsisçi:* **Qobustan Rayon İcra Hakimiyyəti**

***Baş redaktor:***
**Ruslan Şahbazov**
**Tel.: (050) 524 28 10**
**(070) 224 28 10**

***Ünvan:***
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dakika" mətbəəsində çap olunmuşdur
Sifariş: 1620 Tiraj: 2000
**E_mail:qobustanqazeti@mail.ru**

# "Ölkəmizi tanıyaq" layihəsi



***16.11.2017-cı il tarixdə Prezident İlham Əliyevin tapşırığına əsasən Qobustan ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyasının növbəti mərhələsinə start verilib. Layihə üzrə tərtib olunan səfər proqramına əsasən noyabrın 16-da Qobustanın 30 məktəbindən 40 nəfərlik qrup Quba şəhərinə yola salındı. Rayon rəhbərliyinin, təhsil işçilərinin, valideynlərin iştirak etdikləri yolasalma mərasimindən əvvəl tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş və gül dəstələri qoymuşlar.***



Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi. RİH başçısı Adil Məmmədov şagirdləri "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyasiyada iştirak etdikləri üçün təbrik etdi. Onlara uğurlar arzuladı. Quba rayonuna səfərləri zamanı rayonumuzu layiqincə təmsil etmələrini, digər rayonlardan iştirak edən şagirdlərə nümunə olmağı arzuladı. Tur-aksiyanın əhəmiyyətindən, məktəblilərin vətənpərvərlik tərbiyəsindəki rolundan danışdı.

Yolasalma mərasimində iştirak edən 2 saylı tam orta məktəbin direktoru Abduləzizov Əlibəy Əliqulu oğlu çıxış edərək qeyd etdi ki, bu tur-aksiyası Azərbaycanın bir parçası olan Quba, Qusar, Xaçmaz rayonları, onların zəngin tarixi, bu günü barədə geniş bilgilər əldə etməyə imkan verəcək. Daha sonra isə məktəblilərdən Bayramova Əminə Səyavuş qızı və Ağaverdiyev Aydın Habil oğlu Prezident İlham Əliyev cənablarına"Ölkəmizi taniyaq" layihəsinə görə minnətdarlıqlarını bildirdilər. Bu layihə biz məktəblilərə Azərbaycanın bölgələrini qarış-qarış gəzərək orada olan Heydər Əliyev



Mərkəzləri, Gənclər Mərkəzləri və tarixi abidələri ilə tanış olmağa yaxından köməklik göstərəcəkdir. Məktəblilər Qubada Heydər Əliyev Mərkəzi qarşısında qarşılanacaq. Quba Cümə məscidi, Qırmızı Qəsəbə, Quba soyqırımı Memorial kompleksi, Quba Xalçaçılıq emalatxanası, Tağlı Körpü, şəhərdə gəzinti Xınalıq yolundakı şəlalə, "Rixos" Quba mehmanxana kompleksi, Qolf meydançası ilə də tanışlıq olacaq.







Imperial
Mountain Resort
Cənnət Bağı
Quba

Təşəkkürnamə.

"Cənnət Bağı" şirkətlər qrupunun, Quba "Cənnət Bağı"otel kompleksinin rəhbərliyi adından Qobustan rayon İcra Hakimiyyəti və Təhsil şöbəsinə bildirmək istərdik ki,16 noyabr 2017-ci il tarixdən- 19 noyabr 2017-ci il tarixinədək "Ölkəmizi tanıyaq" layihəsi üzrə Quba "Cənnət Bağı" otel kompleksində Sizin rayonun müəllim və şagird heyətinin özünü aparma və intellekt səviyyələrindən çox razı qaldıq. Müəllim heyətinin ciddiliyi, nizam-intizamı, şagirdlər üzərində nəzarəti təqdirə layiq sayılmalıdır. Bu nöqteyi – nəzərdən Quba "Cənnət Bağı" otel kompleksinin rəhbərliyi və işçi heyəti adından Qobustan rayon İcra Hakimiyyəti və Təhsil şöbəsinə minnətdarlığımızı bildirməyi özümüzə borc bildik.

Həmçinin böyuk sevinc hissi ilə şirkətimiz adından,bu gözəl layihənin təşəbbüskarı, ölkə başçısı, cənab Prezident İ. Əliyevə öz dərin təşəkkürümüzü bildiririk.

Hörmətlə, Quba "Cənnət Bağı"otel kompleksinin müdiriyyəti.

Otel müdiri ______ Fərid Əhmədov

Sonra məktəblilər Qusar rayonuna yola düşəcəklər. Tur-aksiya iştirakçıları Qusar rayonu Heydər Əliyev Mərkəzi, Tarix diyarşünaslıq muzeyi, Olimpiya İdman Kompleksi, Rəsm qalereyası və Bayraq Meydanından Qusar rayonunun panoramasını seyr edəcək və şəhərdə gəzinti keçirəcəklər.

Sonra Xaçmaz şəhərinə yoladüşmə olacaq. Tur-aksiya iştirakçıları Heydər Əliyev Mərkəzi, Xalça Muzeyi, Dövlət Rəsm Qalereyası, "Şəxsiyyətlər Muzeyi", Çənlibel parkı ilə tanış olacaqlar. Sonra "Şabran Şəhəri" Tarix Qoruğuna ekskursiya edəcəklər.

Müşayiətçi-müəllim Cahid Nəzərov deyib: "Tur-aksiya çərçivəsində şagirdlər nəinki olacaqları rayonlar barədə ətraflı məlumatlandırılacaq, habelə onların gözəl istirahəti üçün də hər cür şərait nəzərdə tutulub. Hər şeydən əvvəl uşaqlara qayğıdan, onların vətənpərvər ruhda tərbiyəsinə göstərilən diqqətdən irəli gələn bu təşəbbüsə görə Prezident İlham Əliyevə minnətdarıq".



"ÖLKƏMİZİ TANIYAQ!"

Azərbaycan İntellektual Klublar Assosiasiyası

SERTİFİKAT

I YER

Qobustan rayon komandası

"Nə? Harada? Nə zaman?".

Quba şəhəri
18 noyabr 2017-ci il

# "Müstəqil Azərbaycanın gəncləri vətənpərvərdirlər, Vətənə bağlıdırlar..."

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

**Ötən əsrin sonlarında ikinci dəfə müstəqilliyini qazanan Azərbaycan çox çətinliklərlə üz-üzə qaldı. Böyük bir liderin - Ulu öndər Heydər Əliyevin müdrikliyi, iradəsi, uzaqgörənliyi bu yurdu həmin çətin zamanlardan qalib çıxardı. Onu qorudu, inkişaf etdirdi və sabaha əmanət etdi. Böyük öndərin öz xalqına, millətinə bu bənzərsiz əmanətinin yeni qurucusu, yeni yaradıcısı isə Prezident İlham Əliyevdir.**

Son 12 ildə müdrik dövlət başçısının əllərinin sığalı bu diyarı başdan-başa dəyişdi, onu 21-ci əsrin ən sürətlə inkişaf edən ölkəsinə çevirdi, Azərbaycanın adını nəinki bölgənin, dünyanın lider dövlətlərinin sırasına yazdı. O, bütün bunları Azərbaycan insanını, Azərbaycan vətəndaşını, Azərbaycanın sabahını düşünərək etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yüksəlişi bu gün daha dinamik şəkildə davam edir. Və bu yüksəliş, həm də müstəqillik illərində doğulan Azərbaycan vətəndaşlarının - Azərbaycanın yeni nəslinin gözləri önündə baş verir. O nəsil ki, bu ölkənin sabahı onların əlində olacaq. "Bizdən sonra gələn nəsil bizim kimi vətənpərvər və Vətənə bağlı olmalıdır ki, gələcəkdə Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin. Bunu etmək üçün biz möhkəm təməl qoyuruq. Bu gün başlanan, icra edilən layihələrin bir çoxu gələcəyə hesablanıb" deyən Prezident İlham Əliyev hər zaman gənclərə, yeniyetmələrə ölkəmizin hər qarışını yaxından tanımağı, onun tarixini, mədəniyyətini öyrənməyi, milli dəyərlərini, adət-ənənələrini yaşatmağı tövsiyə edir. Dövlət başçısı 2013-cü il sentyabrın 5-də Lənkəranda Gənclər Mərkəzinin açılışında cənub bölgəsinin gəncləri ilə görüşündəki çıxışı ilə də cəmiyyətə çox önəmli bir mesaj verdi. "Tövsiyə etmək istərdim ki, bizim vətəndaşlar, yəni müxtəlif bölgələrdə yaşayan vətəndaşlar vaxt tapıb digər bölgələrə də getsinlər. Cənub zonasının uşaqları getsinlər şimal zonasına, şimaldan gəlsinlər cənuba. Bu, olarsa, onda hər bir yerdə yaşayan vətəndaş ölkənin ümumi inkişafını daha da əyani şəkildə görər. Mən bunu görürəm, çünki son 10 il ərzində bölgələrdə, bəlkə, min dəfə olmuşam. Yəqin ki, mindən çox tədbir olubdur. Ancaq bölgələrdə yaşayan əhalinin böyük əksəriyyəti yalnız öz bölgəsinin inkişafını görür. Ona görə, arzu edirəm ki, çalışın, Azərbaycanın hər bir yerində olun və görün ki, doğrudan da, Azərbaycan gözəl ölkədir. Həm təbiət müxtəlifliyi, eyni zamanda, mədəniyyət müxtəlifliyi vardır. Bu, bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir".

Prezident İlham Əliyevin bu tövsiyəsi nəinki gənclərin, yeniyetmələrin ürəyindən xəbər verdi, bütövlükdə Azərbaycanı sevən hər kəsi səfərbər etdi, bir məqsəd ətrafında cəmləşdirdi, yeni bir layihənin təməlini qoydu: "ÖLKƏMİZİ TANIYAQ". Məram aydın idi: Azərbaycanı müstəqil Azərbaycanın yetirmələrinə təqdim etmək, tanıtmaq və sevdirmək.

Bu, adi layihə deyildi. Bu, Azərbaycanın yeni nəslinin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacaq bir addım idi. Bu, Prezident İlham Əliyevin təşəbbüsü, tapşırığı və nəzarəti ilə həyata keçirilən, Azərbaycanın sabahını düşünərək reallaşdırılan bir layihə idi. Dövlət başçısının gənclərə həssas münasibətinin, diqqət və qayğısının daha bir nümunəsi idi. Bu səbəbdən də tez bir zamanda diqqət çəkdi, ölkənin ictimai və mədəni həyatında mühüm hadisəyə çevrildi...

Beləliklə, Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanın şəhər və rayonlarının 9-11-ci sinif şagirdlərinin ölkəmizi daha yaxından tanıması, onun tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən öyrənməsi, tarixi-mədəni irsimizə sədaqət və hörmət ruhunda tərbiyə olunması, müstəqillik illərində qazanılan nailiyyətləri öz gözləri ilə görmələri üçün 2014-cü ilin avqust ayından başlayaraq Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin təşkilatçılığı ilə şəhər və rayon icra hakimiyyətləri tərəfindən bölgələrə maariflendirici tur-aksiyalar təşkil olundu.

*(Davamı səh.3-də)*

# "Müstəqil Azərbaycanın gəncləri vətənpərvərdirlər, Vətənə bağlıdırlar..."

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*(Əvvəli səh.2-də)*

"Ölkəmizi tanıyaq" adı altında 4 mərhələdə 7 istiqamət üzrə keçirilən maarifləndirici tur-aksiyalar Azərbaycanın dörd qütbünü bir nöqtədə birləşdirdi. Naxçıvan MR daxil olmaqla, ümumilikdə 74 şəhər və rayondan 5155 şagird maarifləndirici tur-aksiyalarda iştirak etdi. Xalqımızın milli-mədəni irsi ilə tanış olan yeniyetmələr, eyni zamanda, bölgələrimizin müasir simasını əks etdirən Heydər Əliyev mərkəzlərində, tarix-diyarşünaslıq muzeylərində və digər görməli yerlərdə oldular. Tur-aksiyaların əsas istiqamətləri belə idi: Bakı - bölgələr, Naxçıvan Muxtar Respublikası, Gəncə-Şəmkir-Göygöl, Şəki-Qax-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik, Şamaxı-İsmayıllı-Qəbələ, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Fizuli-Tərtər...

Bu layihə, obrazlı desək, məktəblilər üçün Azərbaycanın gözəlliyinə açılan pəncərə, onun tərəqqisini göstərən güzgü oldu. Maarifləndirici tur-aksiyaların proqramı zəngin və əhatəli idi. Azərbaycanın qədim tarixi yerlərinə ekskursiyalar, maddi-mədəniyyət nümunələri, memarlıq abidələri, dini dəyərlərimizi özündə yaşadan müqəddəs məkanlarla tanışlıq, xalqımızın tolerantlığının təsdiqi olan guşələrə, eyni zamanda rayonların müasir görkəmini əks etdirən yerlərə səfərlər təşkil olundu.

Belə səfərlərdə bizim günügündən çiçəklənən,inkişaf edən Qobustan rayon məktəbliləri də ildə iki dəfə iştirak edirlər. Ən əvvəl iki məqama diqqət edək: səfər zamanı məktəblilərin rahatlığı üçün hər şey düşünülmüşdü. Hər ekskursiya qrupu 40 nəfər şagird, 5 nəfər müəllim-müşayiətçi, tibb işçisi daxil olmaqla 45 nəfərdən ibarət olur. İştirakçılar üçün xüsusi geyimlər hazırlanır. Hər cür rahatlığı ilə seçilən müasir avtobuslar da məktəblilərin ixtiyarına verilir. Şagirdlər getdikləri rayonların ən müasir otellərində qalır, gəzdikləri istirahət mərkəzlərinin bütün xidmətlərindən istifadə edirlər.və 4 günlük vaxt isə rayonların tarixi, sosial-iqtisadi inkişafı, mədəni mühiti, özünəməxsus adətənənələri ilə tanışlıq üçün yetərli idi. Digər bir vacib məsələ: məktəblilər hər yerdə rayonların rəhbər qurumları, ziyalılar, müəllimlər, valideynlər tərəfindən təntənə ilə yola salınır, hər yerdə də eyni ovqatla, eyni əhvali-ruhiyyə ilə qarşılanırlar. Bu, bir tərəfdən ekskursiyaların yüksək səviyyədə təşkilindən, onun əhəmiyyərindən xəbər verirsə, digər tərəfdən xalqımızın əsrlərdən gələn, bu gün də məhəbbətlə qorunan adətinin - qonaqpərvərliyinin, böyük-kiçiyə hörmətin ifadəsi idi.

Naxçıvan Muxtar Respublikası, Gəncə-Göygöl-Şəmkir, Şəki-Qax-Zaqatala, Şamaxı-İsmayıllı-Qəbələ, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik istiqaməti üzrə səfərlər Azərbaycan tarixinin ayrı-ayrı dövrləri haqqında zəngin məlumat, şagirdlərin öz ölkələri haqqında biliklərinin artırılması, dərslikdən öyrənilənlərin əyaniləşdirilməsi demək idi. Onların gözləri önündə sürətlə inkişaf edən bir ölkənin, bir məmləkətin yeni siması idi. Abad, rahat və müasir yollar tur iştirakçılarını bir bölgədən digərinə aparır, hər rayon bənzərsizliyi, abadlığı ilə qapılarını məktəblilərin üzünə açır, müasir görkəmi ilə göz oxşayır. Şagirdlər üçün qədim yurd yerlərinin tarixi, əsrlərin izini özündə qoruyub saxlayan abidələri, maddi-mənəvi dəyərləri, təbiəti, özünəməxsus adət-ənənələri, mətbəxi ilə əyani tanışlıq nə qədər maraqlıdırsa, onların bugünkü inkişafını görmək o qədər qürurvericidir. Yolçunu hər addımda tarixiliklə müasirliyin vəhdəti müşayiət edir. Xalqımızın dəyərlərinin simvolu olan abidələrin tarixliyi qorunmaqla bərpası, yenidən qurulması, abadlaşdırılması ölkəmizdə milli-mənəvi dəyərlərə dövlətin diqqət və qayğısını göz önündə sərgiləyir. Paytaxtla yanaşı, rayonların da sürətli inkişafı, bu inkişafı təsdiq edən mənzərələr kəndlə şəhər arasında fərqin də nə qədər azaldığını göstərir. Hər yerdə müstəqilliyin izi aydın görünür. Bir daha sübut edir ki, hər bir xalq üçün ən böyük nemət müstəqillikdir, azadlıqdır. Müstəqillik illərində qazandıqlarımızı göz bəbəyi kimi qorumaq isə hər bir vətəndaşın borcudur. Səfər boyu bu qürur hissi insanın qəlbini tərk etmir.

Qobustan məktəblilərinin bu dəfəki səfəri Quba, Qusar, Xaçmaz bölgələrinədir. Quba dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı Qəsəbənin unikallığı, Cümə məscidinin nəfis memarlıq üslubu, xalça ustalarının bənzərsiz əl işləri ilə şagirdlərin hafizəsinə həkk olunacaq. Quba Soyqırımı Memorial Kompleksində yeniyetmələr tariximizin ağrılı səhifələrindən birinin dəhşətli nəticələri ilə əyani tanış olacaqlar.. Buradakı kütləvi məzarlıq 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycanda həyata keçirdikləri soyqırımını sübut edən danılmaz faktlardır. Prezident İlham Əliyevin Qubada "Soyqırımı Memorial Kompleksi"nin yaradılması haqqında Sərəncamı, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Kompleksə tanışlıq gəncləri öz xalqının tarixinə daha həssas yanaşmağa, Azərbaycan həqiqətlərinin təbliğində fəal olmağa səsləyir. Dünyanın otel brendlərindən olan "Rixos" Quba mehmanxana kompleksi isə ölkəmizin müstəqillik illərindəki uğurlarının daha bir möhtəşəm nümunəsi kimi hər kəsi sevindirir. Qusar da son illərdə heyrətamiz dərəcədə dəyişib. Rayon mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yaradılan, dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən "Şahdağ" qış-yay turizm kompleksi isə Azərbaycanın inkişafını göstərən ən mühüm faktlardan biridir. Bu, Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Dünyada ən mükəmməl və bənzərsiz layihələrdən biri olan Şahdağ qış-yay turizm kompleksini öz ölkəsində görmək, nəinki məktəblilər üçün, hər bir azərbaycanlı üçün böyük fəxarətdir.. Məktəblilər Xaçmaz rayonunun da dinamik inkişafının şahidi olurlar. Xaçmaz ölkəmizin tolerantlığının modeli kimi də diqqəti çəkir.

Layihəni diqqətdə saxlayan Prezident İlham Əliyev məktəblilərin bu bölgəyə səfərinə daha böyük önəm verir. Dövlət başçısı 2014-cü il avqustun 29-da Füzuli rayonuna səfərində bunu bir daha diqqətə çatdırıb: "İndi biz gözəl bir proqram icra edirik, gəncləri göndəririk müxtəlif bölgələrə. Yəni bir bölgədən olan gənclər tətildə başqa bölgələrə gedirlər, Azərbaycanla tanış olurlar. "Ölkəmizi tanıyaq" proqramını biz icra edirik. Çox istərdim bu bölgəyə - Ağdama, Füzuliyə daha çox gəlsinlər, görsünlər ki, bura dağılmış vəziyyətdə idi. Erməni vəhşiləri bir dənə də salamat ev qoymamışdılar, hər şeyi dağıtmışdılar və talan etmişdilər, oğurlayıb aparmışdılar. Amma, baxın biz bərpa etdik. Horadiz şəhərdir, gözəl şəhərdir, yollar, xiyabanlar, ictimai yerlər, parklar, iş yerləri, məktəblər, uşaq bağçaları, muğam mərkəzi, idman kompleksi, hər şey var. Daha da yaxşı olacaq..."

"Ölkəmizi tanıyaq" layihəsi, demək olar ki, bütün respublikamızı əhatə etdi, 74 rayondan olan yeniyetmələrin ölkəmizin dörd bir guşəsinə qarşılıqlı səfərləri təşkil olundu. Tur-aksiyalarında ümumilikdə 5155 nəfər şagird iştirak etdi

Beləcə, müstəqil Azərbaycanın minlərlə yeniyetməsi öz ölkəsini - YENİ AZƏRBAYCAN- sonsuz iftixar hissi ilə gəzdi, şəhər və rayonlardakı sosial-iqtisadi tərəqqini öz gözləri ilə gördü, ölkəmizin bugünkü reallıqlarının şahidi oldu. Onlar Azərbaycanı, onun zənginliyini yenidən kəşf etdilər. Azərbaycanı sevdilər, Azərbaycanın sabahı naminə səfərbər oldular...



Bir maraqlı məqam da odur ki, şagirdlər ilk dəfə gördükləri hər bir guşə haqqında ətraflı məlumat toplamağa can atır, səfər zamanı üzləşdikləri bəzi yenilikləri öz rayonlarında görmək istədiklərini də gizlətmirdilər. Bu baxımdan, "Ölkəmizi tanıyaq" layihəsi bir təcrübə mübadiləsinə, şagirdlər arasında mənəvi körpüyə çevrildi, onların dostluğunun əsasını qoydu. Məktəblilərin ayrı-ayrı rayonlarda Heydər Əliyev parklarında əkdikləri ağaclar isə, heç şübhəsiz, qol-budaq atacaq, hər zaman bu səfəri xatırladacaq. İndi ölkəmizin hər bölgəsində fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri yeniyetmələrə Ulu öndərin irsini dərindən öyrənmək, bu irsdən faydalanmaq üçün ən möhtəşəm "mənbə"dir. Gənclərin bu mənbədən öyrəndikləri nədir? Vətəninə, ölkəsinə, xalqına son dərəcə bağlılıq, sədaqət.

Regionlarımızın müasir simasını əks etdirən məkanlardan biri də Gənclər Mərkəzləridir. Bu, ölkəmizdə gənclərə xüsusi münasibətin göstəricisidir və bir daha təsdiq edir ki, Azərbaycanda gənclər siyasətin mərkəzindədir, onların sağlam həyat tərzi, milli ruhda tərbiyəsi diqqətdədir. Tarixən belə olub: hər bir xalq öz xoşbəxt gələcəyini gənclərlə bağlayıb. Bu mənada, gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün başlıca məsələyə çevrilib. "Azərbaycanda dövlət gənclər siyasətinin əsasını Heydər Əliyev qoyub" - bu fikri tez-tez, özü də minnətdarlıq duyğusu ilə dilə gətirir, hər dəfə də bu qayğısına görə Ulu Öndərə rəhmət oxuyuruq. Bir millət, bir dövlət sabahını uğurlara apara biləcək gənclik yetişdirirsə, o millətin, o dövlətin sabahı üçün narahat olmağa dəyməz. Məhz Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə sağlam gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət etdi, onun müdrikliyi Azərbaycanın sabahı üçün layiqli gənclik yetişdirdi və o gənclik ölkəmizi bu günkü möhtəşəm uğurlara çatdırdı. Gənclər bugünkü qayğı isə təsdiq edir ki, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti davamlı bir siyasətdir. Bu siyasətin mühüm istiqamətlərindən biri isə gənc nəslin Vətənə, tariximizə, mədəniyyətimizə, milli dəyərlərimizə hörmət və məhəbbət ruhunda tərbiyəsidir. Prezident İlham Əliyevin Gənclər evlərinin açılışını şəxsən etməsi, vaxtının darlığına baxmayaraq gənclərlə görüşlərə vaxt ayırması, apardığı fikir mübadiləsi, dəyərli tövsiyələri onların həyatında unudulmaz tarixi hadisəyə çevrilir. Dövlət başçısının: "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" kimi olduqca səmimi fikirləri isə gənclərin özlərinə inamını daha da artırır. Prezidentin bu qayğısı o deməkdir ki, hazır olun, bu cənnətə çevrilmiş məmləkətin sabahı sizin əlinizdədir...

"Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində səfər boyu gəncləri qürurlandıran bir məkan isə müstəqilliyimizi əks etdirən, onun rəsmi rəmzi olan üçrəngli bayrağımızın ucaldığı Bayraq meydanları idi. Ali Baş Komandan İlham Əliyevin: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" qətiyyəti ilə yaradılan Bayraq meydanları...

"Ölkəmizi tanıyaq" layihəsi, Vətənə həsr olunan bir "vətənpərvərlik nəğməsi"dir, yeniyetmələrə Vətən sevgisinin bütün sevgilərin fövqündə dayandığını öyrədən bir layihədir.

Ümumiyyətlə, yaradılan gözəllik hər zaman diqqət çəkir, ona baxmağa vadar edir, insana zövq verir və həm də düşündürür. Gözəlliyin mahiyyətində gizlənən fəlsəfə də budur. Bu gün Azərbaycanda aparılan, mahiyyət və məzmun etibarilə seçilən, özünəməxsusluğu ilə fərqlənən və yadda qalan, insana hər addımda mənəvi ruh verən, onu yaşamağa və insanlıq naminə yaratmağa səsləyən abadlıq-quruculuq işlərinin gənclərin estetik zövqünün formalaşmasında, mənəvi tərbiyəsindəki rolu danılmazdır. Axı, gözəllik təkcə göz oxşamır, sevindirmir, rahatlıq bəxş etmir, həm də və ən əsası, insanı mənən zənginləşdirir, onu gözəlliyə, bu gözəlliyi yaradanlara biganə qalmamağa çağırır. Bu mənada, insanları gözəllikdən yaxşı tərbiyə edən ikinci bir vasitə düşünmək olmur. Üstəlik, insan onu əhatə edən gözəlliklərin içərisində pis düşünə və pis davrana bilməz! Əgər biz insanları mənən zəngin görmək istəyiriksə, onların ətrafında gözəllik yaratmalıyıq. Məhz Prezident İlham Əliyev bu məramla da son 12 ildə Azərbaycan tamam dəyişdi, qürur duyulacaq yeni bir AZƏRBAYCAN yaratdı. Ulu öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, mən Azərbaycanlıyam" deyə sevdiyi Azərbaycanı yenidən qurdu. Və bu gün də hər kəsi öz Vətəni ilə fəxr etməyə səsləyir, əməlləri ilə diqtə edir ki, insanın ən dəyərli keyfiyyəti Vətəni sevmək, onu qorumaq və tanıtmaq bacarığıdır. Prezident Ilham Əliyev bu fikirdədir: "Azərbaycanda bütün ənənələr yaşamalıdır. Biz öz milli mənəvi dəyərlərimizə çox bağlıyıq. Xüsusilə indiki dövrdə, qloballaşan dünyada milli ruhda tərbiyə almaq xüsusi əhəmiyyətə malikdir. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar."

"Ölkəmizi tanıyaq" şagirdlərin həyatında bir ilk oldu, ilklər isə heç vaxt unudulmur, hər zaman yadda qalır, təəssüratlar isə, demək olar ki, eynidir:

"Ölkəmizi tanıyaq" layihəsi isə YENİ AZƏRBAYCANI yeni nəsillərə tanıtmaq, sevdirmək, onları milli tarixi kökə bağlamaq, gələcəyə hazırlamaq üçün misilsiz bir layihədir. Davamlı olsun!..

# 22 noyabr - Ədliiyə işçiləri peşə bayramını qeyd etdi!

***Ədliyyə qulluqçularının peşə bayramı günü münasibətilə keçirilən tədbir öncə Ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül qoymaqla başladı.***

Tədbir Qobustan rayon məhkəməsni akt zalında davam etdi . İlk olaraq RİH başçısı Adil Məmmədov onları bu gün münasibətilə təbrik etdi. Onlara işlərində uğurlar arzuladı.



**Mirələm Quliyev**
*Qobustan rayon məhkəməsinin sədri*

Sonra Qobustan rayon məhkəməsini sədri Mirələm Quliyev ədliyyə sisteminin tarixi haqqında məruzə ilə çıxış edərək qeyd etdi ki, bildiyimiz kimi, bu gün əsrə bərabər zəngin və şərəfli tarixi yol keçən Azərbaycan ədliyyəsinin yaranmasından 99 il ötür.

Çoxəsrlik dövlətçilik ənənəsi olan Azərbaycan Respublikasının ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilərək, Ədliyyə Nazirliyi dövlətimizin yarandığı gün - 1918-ci il may ayının 28-də təsis edilmişdir.

Həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

1920-ci il aprel ayında Sovet Rusiyasının XI ordusu Azərbaycan Xalq Cümhuriyyətini işğal edildikdən sonra inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

1933-cü ildə məhkəmələrin, prokurorluğun, istintaqın birləşdirilməsi, vahid məhkəmə siyasətinin həyata keçirilməsi, bütün hakimiyyət orqanlarının, təsərrüfat müəssisələrinin, ictimai birliklərin və fiziki şəxslərin hərəkətlərinin qanuniliyini müşahidə etmək məqsədilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, Dövlət prokurorluğuna və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir.

1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə olunmuş, Nazirlər Soveti yanında Hüquq Komissiyası təşkil edilmiş və



bununla da Ədliyyə Komissarlığının səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

İfrat mərkəzləşdirilmiş hakimiyyətə aludəçilik, ayrı-ayrı dövrlərdə ədliyyə orqanlarından repressiya aləti kimi istifadə edilməsinə yönələn dövlət siyasəti, bu orqanların dəfələrlə ləğv edilib yenidən yaradılması ədliyyə sisteminin sabit struktura malik olmasına və işinin təşkilinə maneçilik törədirdi.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit fəaliyyəti təmin edilmiş, nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

Azərbaycan ədliyyəsi ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra da ulu öndər Heydər Əliyevin diqqətindən kənarda qalmamış, 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Ümummilli Liderin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır.

Ulu Öndərin ədliyyə sahəsinə göstərdiyi böyük qayğının təzahürü olaraq 11 noyabr 2000-ci il tarixdə imzaladığı Sərəncamla Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

Ulu Öndərin ədliyyə sahəsinə göstərdiyi böyük qayğının təzahürü olaraq 11 noyabr 2000-ci il tarixdə imzaladığı Sərəncamla Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunmuş, nazirliyinə vəzifələr həvalə edilmiş, strukturu təkmilləşdirilmişdir. Müstəqillik dövründə ilk dəfə olaraq dövlət başçısının 18 aprel 2006-cı il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi haqqında əsasnamə təsdiq edilərək ona hüquq mühafizə orqanı statusu verilmiş, habelə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Qanunu qəbul olunmuş və ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərman imzalanmışdır.

Dövlət başçısının 06 fevral 2009-cu il tarixli Sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" təsdiq edilərək həyata keçirilmişdir.

Bu gün ədliyyə işçilərinin peşə bayramı günü bütün ədliyyə orqanlarında böyük ruh yüksəkliyi ilə geniş qeyd olunur.

Mən də peşə bayramı günü münasibətilə bütün ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edirəm.

Ulu Öndərin qayğısı ilə təkmil bir struktur kimi formalaşaraq inkişaf edən Ədliyyə Nazirliyi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə geniş vüsət alan məhkəmə-hüquq islahatları çərçivəsində günbəgün müasirləşir, yeni-yeni nailiyyətlərə imza atır.

Dahi öndərin inkişaf strategiyasını uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən bayram ərəfəsində ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə qanunvericiliyə mühüm dəyişikliklərin edilməsi, həmçinin fərqlənmiş bir qrup ədliyyə işçisinin dövlət təltiflərinə layiq bilinməsi dövlətimizin ədliyyə sisteminə göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür.

Bir daha Ədliyyə işçilərinin peşə bayramı münasibəti ilə bütün ədliyyə işçilərini təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzu edirəm.

Çıxışımı Ölkə başçısının sözləri ilə yekunlaşdırmaq istəyirəm: "Məhkəmə ədalət sarayı olmalıdır. Çünki ədalət hər bir cəmiyyətin inkişafı üçün başlıca amillərdən biridir. Heç bir cinayət cəzasız qalmamalıdır, ancaq günahsız insanlar da cəzalandırılmamalıdır".

# Ədliyyə qulluqçularının peşə bayramı günü



***Malik Məlikov***
*Qobustan rayon icra şöbəsinin rəisi kiçik ədliyyə müşaviri*

***Hər birinizi ədliyyə qulluqçularının peşə bayramı günü münasibətilə təbrik edirəm!***

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ümummilli liderimiz Heydər Əliyevin bilavasitə rəhbərliyi və təşəbbüsü ilə cəmiyyət və dövlət həyatının bütün sahələrində olduğu kimi, hüquqi sahədə də məqsədyönlü islahatlar aparılmağa başlanmış, ölkəmizdə qısa müddət ərzində demokratik prinsiplərə və beynəlxalq tələblərə uyğun mütərəqqi qanun və məcəllələr qəbul edilmiş, əvvəlkindən köklü surətdə fərqlənən yeni məhkəmə sistemi yaradılmışdır.

Ölkəmizdə ədliyyə sisteminin inkişafı üzrə aparılan islahatlar çərçivəsində insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından mühüm vəzifələrdən biri də məhkəmə qərarlarının icra olunmasıdır. Məhkəmə qərarlarının vaxtında və tam icra olunması həm də ədalət mühakiməsinin səmərəliliyinin və məhkəmə hakimiyyətinin nüfuzunun artırılmasının vacib şərtlərindəndir. Bunu nəzərə alaraq son illər ölkəmizdə məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi üzrə köklü islahatlar aparılmış, o cümlədən qanunvericilik bazası yeniləşdirilmiş və 2000-ci ildə Ədliyyə Nazirliyində məhkəmə icraçıları və nəzarətçiləri xidməti yaradılmışdır.




Məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasını təmin edən, həmçinin onların qərarlarının, cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların, habelə digər aidiyyəti orqanların aktlarının icrasını həyata keçirən xidmətin formalaşdırılması məqsədilə nazirlik tərəfindən ardıcıl və məqsədyönlü işlər görülmüş, o cümlədən son dövrdə onun yeni strukturu və əsasnaməsi təsdiq edilmişdir. Yerli qurumların maddi-texniki bazası xeyli yaxşılaşdırılmış və böyük əksəriyyəti avtonəqliyyat vasitələri ilə təchiz olunmuşdur.

Ölkə prezidentinin Ədliyyə Nazirliyinə diqqət və qayğısının təzahürüdür ki, İcra xidmətinin səlahiyyətləri artırılmış, müasir texniki nailiyyətlərdən istifadə edərək fəaliyyətinin səmərəliliyi artırılmışdır. Belə ki, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə qərarlarının icrası xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə işin müasir tələblər səviyyəsində qurulması, icra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın təmin olunması məqsədilə elektron icra xidməti tətbiq olunmağa başlamış, metodiki köməklik məqsədilə "İcra haqqında" Qanunun Kommentariyası hazırlanmışdır.

Bu gün zəngin və şərəfli tarixi yol keçən Azərbaycan ədliyyəsinin yaranmasından 99 il ötür. Ulu Öndərin qayğısı ilə təkmil bir struktur kimi formalaşaraq inkişaf edən Ədliyyə Nazirliyi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə geniş vüsət alan məhkəmə-hüquq islahatları çərçivəsində günbəgün müasirləşir, yeni-yeni nailiyyətlərə imza atır. Belə bir əlamətdar gündə ədliyyə və məhkəmə sisteminin nailiyyətlərindən söhbət açmaq olduqca xoşdur. Bu yaxınlarda ölkəmiz Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülmüşdür. Bu da öz növbəsində Azərbaycan ədliyyəsinin beynəlxalq müstəvidə nailiyyətlər əldə edəcək səviyyədə olduğunu bir daha sübut edir.

# Ölkəmizin həyatında baş verən mütərəqqi dəyişikliklər özünü ildən-ilə daha qabarıq şəkildə göstərir

***"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamı humanist siyasətinin bariz nümunəsidir.***

Ümummilli lider Heydər Əliyev siyasi irsinin layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin böyük siyasi iradə, əzm və qətiyyəti hesabına inamla həyata keçirilən müdrik və uzaqgörən dövlət siyasəti nəticəsində ölkəmiz bütün sahələrdə mühüm nailiyyətlər qazanaraq sürətlə inkişaf etməkdə, daha irimiqyaslı uğurlara və əhəmiyyətli qələbələrə imza atmaqda davam edir.

Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən mütərəqqi dəyişikliklər özünü ildən-ilə daha qabarıq şəkildə göstərməklə Azərbaycan Respublikasının inkişaf etmiş ölkələr sırasına daxil olmasını, onun beynəlxalq nüfuzunun artmasını, dünya dövlətləri sırasında layiqli yer tutmasını, bəşəri norma və prinsiplərə əməl edən müstəqil, sivil, demokratik və hüquqi dövlət kimi tanınmasını təmin etmişdir.

Müdrik siyasi kursun məntiqi nəticəsidir ki, 2017-ci ildə ölkəmiz mürəkkəb qlobal proseslərin təsirindən məharətlə qorunaraq uğurlu inkişafı davam etdirmişdir. Belə ki, dövlət başçısının uğurlu iqtisadi siyasətinin nəticəsində tarixi əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmir yolu tikilərək istifadəyə verilmişdir.

Ötən dövrlərdə olduğu kimi, 2017-ci ildə dövlət başçısının rəhbərliyi ilə demokratik inkişaf yolu seçmiş müstəqil Azərbaycan Respublikasında dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları intensiv xarakter almışdır.

Penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkili məqsədilə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Sərəncam vermişdir.

Qeyd edilən sərəncam insan hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunması, cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə cəzasının tətbiqinin məhdudlaşdırılması, cinayətlərin dekriminallaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsini ehtiva edir.

Sərəncama əsasən yaradılacaq Probasiya xidmətinin əsas vəzifələri isə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş və ya şərti məhkum edilmiş şəxslərlə işin təşkilini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq, bu fəaliyyətə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin etmək olacaq.

Sərəncamın icrası ilə əlaqədar "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu qəbul olunmuşdur.

Bu dəyişikliklər cinayətlərin, xüsusilə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində bəzi cinayətlərin dekriminallaşdırılmasını, cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunmasını, alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsini, bu məqsədlə Cinayət Məcəlləsinə yeni cəza növü kimi-məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasının daxil edilməsini, zərərçəkmiş şəxslə barışıq institutunun daha da təkmilləşdirilməsi kimi əhəmiyyətli halları əhatə edir.

Ümumilikdə Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik edilərək, 18 cinayət əməli dekriminallaşdırılmış, 24 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, 1 cinayətə görə narkomanlıq xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi, 152 cinayətin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə edilməsi və 36 cinayətə görə azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulmuşdur.

Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə mülkiyyət əleyhinə və ehtiyatsızlıqla törədilən bir sıra cinayət əməlləri Cinayət Məcəlləsindən çıxarılmış, bir sıra cinayət əməllərinə görə isə cinayət məsuliyyəti yaradan həddin artırılması ilə həmin əməllər dekriminalaşdırılmışdır.

Belə ki, Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin birinci bəndində nəzərdə tutulmuşdur: "Bu Məcəllənin 177.1, 178.1 və 179.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır. Bu Məcəllənin 177.2.1-177.2.3-2, 177.2.5 və 177.3.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda yaranır." Göründüyü kimi, bu əməllərə görə hədd 100 manatdan 500 manata kimi artırılmışdır. Nəticədə, mülkiyyət əleyhinə bir sıra əməllər İnzibati Xətalar Məcəlləsinə daxil olduğu üçün onlar inzibati məsuliyyət yaradacaq.Lakin yaşayış sahəsinə daxil olmaq, təkrar törədilən cinayətlərə görə həmin hədd əvvəlki kimi saxlanılmışdır.

Bundan başqa, Cinayət Məcəlləsinin 263-cü maddəsinin "Qeyd" hissəsinə şəxsin cinayət məsuliyyətindən azad olunmasını nəzərdə tutan ikinci bənd əlavə edilmişdir: "2. Bu Məcəllənin 263.1 və ya 263.1-1-ci maddələrində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Bu halda şəxsin əməllərində inzibati xəta tərkibinin əlamətləri olduqda o, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilir."

Habelə, Cinayət Məcəlləsinin 162-1.2-ci maddəsinin "Qeyd" hissəsinə aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilmişdir: Bu Məcəllənin 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda və dövlət büdcəsinə ödəməkdən yayındırılmış vergiləri və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Şəxs bu "Qeyd"in 2-ci bəndində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir."

Cinayət Məcəlləsinə edilmiş humanist dəyişikliklərdən biri kimi narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etməni də qeyd etmək olar.

Belə ki, 74-1.1-ci maddədə nəzərdə tutulmuşdur: Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Həmin şəxsin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edildikdə, məhkəmə şəxsi cinayət məsuliyyətindən azad edir."

Azadlığın məhdudlaşdırılması cəzası ilə bağlı müddəalar həmin cəzanın icrası və elektron nəzarət vasitələrinin tətbiq edilməsi qaydalarının müəyyən edilməsi ilə əlaqədar Cəzaların İcrası Məcəlləsində ediləcək dəyişikliklərlə eyni gündə, narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etməyə dair müddəalar müvafiq icra hakimiyyəti orqanının narkomaniya xəstəliyi ilə bağlı tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin fəaliyyətə başladığı gündən, digər müddəalar isə 2017-ci il dekabrın 1-dən qüvvəyə minir.

**_Ramin Hüseynov_**
*Qobustan rayon prokuroru,*
*kiçik ədliyyə müşaviri*

# 9 noyabr "Dövlət Bayrağı Günü" nə həsr olunmuş tədbir keçirildi

***Noyabr 8-də Qobustan rayonunda Azərbaycan tarixində əlamətdar hadisələrdən olan 9 noyabr - Dövlət Bayrağı Günü və 21 noyabr -Yeni Azərbaycan Partiyasının 25 illiyi münasibətilə tədbir keçirildi.***

Qobustan Rayon İcra Hakimiyyətinin akt zalında keçirilən tədbirdə Rayon İcra Hakimiyyəti başçısının müavinləri, RİH başçısı aparatının məsul işçiləri, rayon icra strukturlarının rəhbərləri, ictimai fəallığı ilə seçilən gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdi.

Tədbir Azərbaycan respublikasının Dövlət himninin səslənməsi ilə başladı.





Bayram münasibətilə Yeni Azərbaycan Partiyasının Qobustan Rayon təşkilatının sədri Füzuli Gülaliyev təbrik nitqi söylədi. Yeni Azərbaycan Partiyasının Qobustan Rayon təşkilatının sədri əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edərək dövlətimizin bayrağının daim yüksəklərdə dalğalanmasını arzu etdi. Füzuli Güləliyev çıxışında vurğuladı ki, üçrəngli, ayulduzlu bayrağımız müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet əsarətindən qurtulmağımıza bir il qalmış Naxçıvan Muxtar Respublikasının Ali Məclisində rəsmi dövlət atributu kimi təsdiqlənmiş, həmçinin Ümummilli Liderin təşəbbüsü ilə bu məsələ ilə bağlı Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmış, nəticədə milli bayrağımız ölkəmizin dövlət rəmzi kimi qəbul edilmişdir.

Yeni Azərbaycan Partiyasının Qobustan Rayon təşkilatının sədri daha sonra dövlət başçısı cənab İlham Əliyevin Azərbaycan dövlət rəmzlərinə göstərdiyi diqqətdən bəhs edərək, 2009-cu il noyabr ayının 17-də imzaladığı sərəncamla 9 noyabr tarixini Dövlət Bayrağı Günü kimi təsis edilməsini qeyd edərək, dövlət başçısı tərəfindən atılan bu addımı özlüyündə bir ölkə rəhbərinin öz xalqının tarixi keçmişi, dövlətçilik ənənələri və milli-mənəvi dəyərlərinə göstərdiyi diqqətin bariz nümunəsi kimi səciyyələndirdi. Bundan əlavə, Füzuli Gülaliyev 21 noyabr -Yeni Azərbaycan Partiyasının 25 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik edərək, bu hadisənin də Ulu Öndərin Azərbaycan xalqına və dövlətçiliyinə göstərdiyi tarixi xidmətlərdən biri kimi qeyd etdi.

Tədbir məktəb şagirdlərinin müxtəlif şeir və mahnıları ilə davam etdi.

# YAP Qobustan rayon təşkilatının növbəti Şura iclası keçirildi





***Bu gün Yap Qobustan rayon təşkilatının növbəti Şura iclası keçirildi. Şura iclasında Şura üzvləri, idarə heyətinin üzvləri, NQT-üzvləri və Gənclər Birliyinin üzvləri və ərazi ilk partiya təşkilatının sədrləri iştirak edirdilər.***

İclasda çıxış edən YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev bildirdi ki, YAP-nın 25 illiyi yüksək səviyyədə qeyd olunmuşdur. O, qeyd etdi ki, Yeni Azərbaycan Partiyası bu 25 il ərzində möhtəşəm bir tarix yaradıb. Bu 25 il ərzində xüsusilədə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonar Azərbaycanda baş verən bütün mütərəqqi , müsbət dəyişikliklər, inkişafı özündə əks etdirən bütün faktlar, Azərbaycanın müstəqil dövlətinin qurulması və onun iqtisadi və sosial cəhətdən inkişafı, ölkəmizin simasının köklü surətdə yenilənməsi, müasirləşməsi, ölkəmizin dünya birliyində mövqelərinin möhkəmlənməsi və saya biləcəyimiz bugünkü həyatımızı,dövlətimizin gerçəkliklərini, inkişafını əks etdirən bütün müsbət, pozitiv cəhətlərin hər biri bir mənalı şəkildə Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə əlaqədardır. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Onun titanik fəaliyyətilə, 2003-cü ildən sonra isə Yeni Azərbaycan Partiyasının sədri Prezident İlham Əliyevin uğurlu fəaliyyətinin nəticəsində bu irəliləyişlər əldə olunubdur. YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev 25 noyabr 2017-ci il tarixində keçirilmiş Yeni Azərbaycan Partiyasının rayon təşkilatı sədrlərinin ümumrespublika müşavirəsində səslənən fikirlərə münasibətini bildirərək geniş fikir mübadiləsi aparıldığını qeyd etdi. Qeyd olundu ki, 2018- ci ildə qarşıdan gələn Prezident seçkilərinə artıq start verilmişdir. Prezident seçkilərilə əlaqədar bu gündən YAP Qobustan rayon təşkilatı öz işini günün tələbləri səviyyəsində qurmalıdır.Gələn ilin yanvar ayından etibarən partiyanın bütün üzvləri seçkiyə hazırlıqla bağlı səfərbər olunacaq. Bütün bunlarən əsasında rayon miqyasdında ilk partiya təşkilatları tərəfindən görüləcək işlərlə bağlı tədbirlər planı hazırlanacaq.



Sura iclasında Şura üzvlərindən Əkbərov Məharət , İsmayılova Aynur, Mikayılov Elman və digərləri çıxış edərək Yeni Azərbaycan Partiyasının 25 ildə uğurları və dünya siyasətində rolu haqqında geniş və ətraflı məlumat verdilər.

***AZADƏ RƏSSAM***

# Rayonumuzda "16 noyabr - Beynəlxalq Tolerantlıq Günü" qeyd edildi

***12 noyabr 2017-ci il tarixdə Qobustan rayonu İcra hakimiyyətinin və Xilmilli kənd "Molokan ruhani-xristian" dini icmasının birgə təşkilatçılığı ilə rayonun Xilmilli kəndində "16 noyabr-Beynəlxalq Tolerantlıq Günü" qeyd edildi.***

Tədbirdə Qobustan RİH başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Məharət Əkbərov, RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, Qobustan RİH başçısının Xilmilli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Adil Bayramov, Heydər məscidinin imamı Çingiz Babaşov, Bakı və Sumqayıt şəhərlərindən, İsmayıllı və Şamaxı rayonlarından olan ruhani-xristian dini icmaların rəhbərləri, Xilmilli kənd məscidi dini icmasının üzvləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.





Tədbiri giriş sözü ilə açan RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov qeyd etdi ki, bu gün Azərbaycan əksər dövlətlər tərəfindən tolerant ölkə kimi tanınır. Ölkəmiz bütün millətlərin, xalqların, dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığı sakit və sabit bir adaya bənzəyir. Əhalisinin çoxmillətli olması, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşayışı bir daha təsdiq edir ki, Azərbaycan tolerantlığın ən nümunəvi məkanlarından biridir. Sevindirici haldır ki, Avropanın bir neçə ali təhsil ocaqlarında Azərbaycan multikulturalizmi fənn kimi tədris olunur. Bütün bu nailiyyətlər Ölkə Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə dövlət siyasətinin dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətin nəticəsidir. A.Şikarov həmçinin bildirdi ki, Qobustan Rayon İcra Hakimiyyətinin rəhbərliyi rayonda multikultural, tolerant dəyərlərlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayır. Bu səbəbdən bu vaxta kimi rayonda dini, milli zəmində heç bir neqativ hal baş verməmişdir.



Digər çıxış edənlər ölkəmizdə hökm sürən sabitliyə, inkişafa görə Prezident cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirdilər.

Tədbirin sonunda Xilmilli kənd "Molokan ruhani-xristian" dini icmasının sədri Yekaterina Tsapleva rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə Qobustan Rayonu İcra Hakimiyyətinin başçısı tərəfindən Fəxri Fərmanla təltif olundu.

# Qobustan rayonunun içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri başa çatıb









**Mərasimdə iştirak edən rayon icra hakimiyyəti başçısının müavini Məhərət Əkbərov, Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin nümayəndəsi Fuşimi Kaçytoşi, "Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov Təsi su mənbəyini gəzib, burada idarəetmə sistemi, nasos stansiyası və digər xidmət sahələrindəki müasir texniki avadanlıqlarla tanış oluqdan sonra sutəmizləyici qurğular işə salındı. Tədbirdə iştirak edənlər təmizlənmiş suyun keyfiyyəti ilə də tanış oldular.**

Kənd sakinləri qarşısında çıxış edənlər bildiriblər ki, sözügedən layihə üzrə müqavilə Yaponiya Hökuməti ilə Azərbaycan Hökuməti arasında 2009-cu ilin fevralında imzalanıb və dəyəri 319 milyon ABŞ dolları təşkil edir. Layihə Azərbaycanın 5 şəhər və rayonunda - Xaçmaz, Xızı, Qusar, Qobustan və Naftalanda su təchizatı və kanalizasiya sistemini təkmilləşdirməyi nəzərdə tutur. Layihədən faydalanacaq əhalinin ümumi sayı Qobustan da daxil olmaqla, 91 min



800 nəfərdir. Layihə Qusar, Naftalan və Qobustanda artıq başa çatıb, Xaçmaz və Xızı rayonlarında isə 2018-ci ildə yekunlaşacaq.

Qobustanda layihənin başa çatması ilə Təsi, Bədəlli, Ərəbqədim, Göydərə, Dərəkənd, Cəmcəmli kəndlərinin və şəhərin, ümumilikdə, 12 min nəfər əhalisi fasiləsiz içməli su ilə təmin olunub. Tullantı sularının təmizlənib zərərsizləşdirilməsi üçün gələcəkdə Qobustan şəhərində məhsuldarlığı sutkada 2500 kubmetr olacaq sutəmizləyici qurğu da inşa ediləcək.

Sonda qonaqlar su mənbəyinin həyətində ağac əkiblər.

# Qobustan şəhərində tikinti-quruculuq və abadlıq işləri davam edir!



İndi respublikamızın bütün şəhər və rayonlarında genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri aparılır, səliqə-sahman yaradılır. Görülən işlər isə sadəcə olaraq kampaniya xarakteri daşımır, şəhər, qəsəbə və kəndlərimizin simasının daha da yaxşılaşdırılmasına, baxımlı olmasına xidmət edir. Bu da təsadüfi deyil. Çünki ölkə Prezidentinin tikinti-quruculuq və abadlıq işlərinin zövqlə, günün tələbləri səviyyəsində aparılmasına dair göstəriş və tövsiyələri təsərrüfat subyektlərinin üzərinə böyük məsuliyyət qoyur. Məhz buna görədir ki, son zamanlar ölkədə aparılan abadlıq-quruculuq və yenidənqurma işləri zövq oxşayır, şəhər, kənd və qəsəbələrin simasına əlavə yaraşıq gətirir. Bu baxımdan Qobustan rayonunda da görülən işlər, həyata keçirilən tədbirlər də diqqəti cəlb edir.

Belə ki, prezidentimizin Qobustan rayonuna son səfərindən sonra rayonumuzda quruculuq-abadlıq işləri sürətlənmişdir. Şəhərimizin "Yeni massiv" adlanan ərazisində asfaltlama işləri aparılaraq 9817 $m^2$, keçmiş Nərimankənd adlanan hissəsində 8604 $m^2$, təzə qurulmuş massivdə 12619 $m^2$, Heydər Əliyev prospektilə Şikar Şikarov küçəsinə paralel küçələrə 1590 $m^2$ asfalt örtüyü vurulmuşdur.

Ş.Şikarov küçəsində piyadaların hərəkətinin yaxşılaşdırılması məqsədilə səkilərin qurulması işlərinə başlanmışdır. Ümumilikdə 6000 m səki daşları gətirilmişdir ki, bunlardan 1500 m-i qurulmuşdur.

Su ötürücüləri Ş.Şikarov küçəsində 700 m, Koroğlu küçəsində 60m məsafədə işlər görülmüşdür və davam etdirilir.

Hal-hazırda şəhərin küçələrinin işıqlandırılması üçün müasir işıq dirəkləri hazırlanır. İşıq dirəkləri yaxın vaxtlarda Tofiq İsmayılov küçəsinə, M.Ə.Sabir küçəsinə, Nərimankənd adlanan ərazinin bir hissəsinə , Zərifə Əliyeva küçəsinə quraşdırılması nəzərdə tutulmuşdur.

Bakı-Şamaxı yolunun 82 km-də Heydər Əliyev parkının yaxınlığında Qobustan RİH başçısı Adil Məmmədovun səyi nəticəsində Qobustan şəhərinə ikinci alternativ yolun çəkilişi başlanmışdır. Hal-hazırda tamamlanma işləri aparılır.

Qobustan Rayon İcra Hakimiyyəti rəhbərliyinin yaxından köməyi və diqqəti sayəsində bütün işlər yüksək səviyyədə və operativ surətdə həyata keçirilir ki, bu da sakinlərin dərin razılığına səbəb olur.

*Məzahir Əliyev*

# Qobustan rayonunun 2017-ci ilin III rübündə əsas iqtisadi göstəriciləri

2017-ci ilin yanvar-sentyabr aylarında rayonda 123962,8 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bundan 48,4 faizi və ya 59963,6 min manatı istehsal sahələrinin payına düşür. 2017-ci ilin yanvar-sentyabr aylarında sənaye məhsullarının ümumi həcmi və göstərilmiş xidmətlər 1153,6 min manat və ya ümumi məhsul buraxılışının həcminin 0,9 faizini, kənd təsərrüfatının ümumi həcmi 59828,5 min manat və ya ümumi məhsul buraxılışının 48,3 faizini təşkil etmişdir ki, bunun da 31,6 faizi yəni 18888,1 min manatı bitkiçilik məhsullarının 68,4 faizi yəni 40940,4 min manatı heyvandarlıq sahəsinin payına düşür. Tikinti sektorunun ümumi həcmi 3598,5 min manat və ya ümumi məhsul buraxılışının 2,9 faizini, nəqliyyat sektoru üzrə 1362,6 min manat və ya ümumi məhsul buraxılışının 1,1 faizini, poçt və rabitə xidmətləri üzrə 221,8 min manat və ya ümumi məhsul buraxılışının 0,2 faizini və ticarət sahəsi üzrə isə 57797,8 min manat və ya ümumi məhsul buraxılışının 46,6 faizini təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi məhsul buraxılışı 126,6 faiz təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulunun ümumi həcmi 108,7 faiz, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 135,6 faiz, tikinti sektoru üzrə 210,0 faiz, nəqliyyat sektoru üzrə 103,2 faiz, informasiya və rabitə sektoru üzrə 113,0 faiz və ticarət sektoru üzrə 116,7 faiz təşkil etmişdir. Müqayisədən göründüyü kimi əksər sektorlar üzrə ümumi məhsul buraxılışının həcmində artım müşahidə olunmuşdur.

**Qobustan rayonu üzrə Makroiqtisadi göstəricilər**

min manat

| | 2017-ci il | 2017-ci il 2016-cı ilə nisbəti faizlə |
|---|---|---|
| Əsas kapitala yönəlmiş investisiya | 123962,8 | 126,6 |
| Sənaye məhsullarının ümumi həcmi | 1153,6 | 108,7 |
| Ümumi məhsul buraxılışı | 56014,5 | 187,8 |
| Kənd təsərrüfatı məhsullarının ümumi həcmi | 59828,5 | 135,6 |
| Nəqliyyat sek. yük daşınması (min ton) | 620 | 102,3 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 221,8 | 113,0 |
| Pərakəndə əmtəə dövriyyəsi | 47681 | 116,7 |
| Əhaliyə göstərilən pullu xidmət | 8287 | 110,3 |
| Bir işçiyə hesablanmış orta aylıq ə/h manatla | 292,1 | 111,5 |
| Qeydə alınmış işsizlərin sayı , nəfər | 1473 | 121,4 |

*Qobustan Rayon Statistika İdarəsi*